

# SÜBH ÇAĞININ ŞEİRLƏRİ

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Şeir həmişə bu dünyanın özü kimi qəribəliklərlə səni özünə cəlb edir. Eyniliklər səni yorur - hər səhər işə getməyin də, işlən qayıtmağın da, salam verib salam almağın da, yatmağın da, yuxudan ayılmağın da, televiziyaya baxıb eyni musiqiləri dinləyənlə də, yas yerində mollanın eyni avazla eyni sözləri oxumağı da, cibində bir qara qəpiyin olmayıb dünyanın üzünə tüpürməyin də yorur səni Baş götürüb bu zalım dünyadan qaçmaq, biryolluq yaxanı qurtarmaq istəyirsən.**

Və birdən... Səhər, sübh çağı Günəş doğur. Hər gün gördüyün Günəşdi, amma sənə sanki təzə doğulmuş kimi görünür. Ürəyində o Günəş boyda bir Günəş şölələnir və bütün varlığını sirli, sehrli bir işıq bürüyür.

**Nola gər əmvatə ehya versə sübhün dəmləri,**
**Zikri-ləlindir kim, eylər dəmbədəm təkrar sübh.**

**Bir müsəvvirdir ki, zərrin kilk ilə hər gün çəkər,**
**Səfheyi-gərdunə nəqşi-arizi -dildar sübh.**

(Sübhün dəmləri ölüləri diriltsə, təəccüblü deyil, ləl dodağının zikridir ki, hər an sübh onu təkrar eləyir... Sübh bir rəssamdır ki, hər gün göy üzünə qızıl qələmlə yar yanağının şəklini çəkir - Məhəmməd Füzuli)

Təzə şeir də Günəşi və hər gün doğulan Sübhü xatırladır sənə.

Vüqar Əlisoyun şeirlərini oxuyanda da bir təzəlik, kimsəni təkrar etməyəcəyi bir tərz, yalnız özünün dünyaya orijinal baxışını ifadə edən poetik bir duyum hiss elədim. Onun şeirləri səndə belə bir təsəvvür yaradır ki, bunlar adilikdə qeyri-adiliyi görmək, anda zamanı hiss etmək canatımından doğub. Şairliyin birinci əlaməti elə bu qeyri-adiliyi poeziyaya gətirmək hünərindən yaranır. Vüqar Əlisoy hər şeirində buna cəhd edir və ilhamının gücü, potensial imkanları nəyə çatırsa, o məqama yetə bilir.

**Yatanda**
**Ürəyini açıq qoy**
**Birdən yuxu aparar**
**Xəyalına gələrəm**
**Birdən Tanrı nəhayət**
**Gülər bir gün üzümə**
**Gözündə uyuyaram**
**Könlündə dincələrəm**

Zahirən adi sevgi şeiridir. Amma bu adiliyin nizamını pozan şeirin ilk misralarıdır ki, sonra gələn misralar ilk dalğanın ardınca yüyürən dalğalar kimi onu sona yetirir.

Vüqar Əlisoyun şeirlərinin təzəliyini, böyük çıxmasın, bənzərsizliyini mən mövzu seçimində yox, mövzuya yeni rakursdan yanaşmaqda görürəm. O, sevgidən yazanda da, insanın bu ali, müqəddəs hissini poeziya dili ilə ifadə edəndə də, çalışır ki, şablonlardan qaçsın. Hər sevgi təzədir və hər sevginin sənə aşıladığı hiss də təzə olmalıdır. Həsrətdən, ayrılıqdan çox yazırlar, amma Vüqar Əlisoyun bu həsrət şeiri ifadə tərzinə, həsrətin təzə bir variantını yaradır, hardasa bu şeir Əli Kərimin "Qayıt" şeiri ilə səsləşir:

**Sevinə bilmirəm gələn sabaha,**
**Üzümə çırpıram qapılarımı.**
**Durub daşlıyıram doğan günəşi**
**Gəlib artırmasın əzablarımı.**

**Uzanır əllərim telinə sənin**
**Gözümə görünən əlimə dəymir.**
**Ovudur qəlbimi xatirələrin**
**Əllərin gözümün yaşını silmir.**

**Hansı günahımdı, altın çəkirəm**
**Səsim aya çatır, sənə yetişmir.**
**Nə mən bu həsrətdən ölə bilirəm,**
**Nə də ki, bu həsrət sona yetişmir.**

O, təbiətdən yazanda da, peyzaja uymur, təbiətdəki gizlinləri, üzə çıxmayan mənaları arayır. Təbiətlə insan, küləklə, yağışla, qarla ürək arasında təzad və həm də oxşar hallar, bənzərliklər axtarır. Pəncərəyə yağan lələk-lələk qarın rəngi ilə bir insan taleyinin rəngi arasında təzad var, amma qar üstündə sitildəyən bir quşun səsi insan səsinin ahənginə düşə bilər.

O, müharibədən yazanda da müharibənin özünü, döyüş-vuruş səhnələrini deyil, müharibənin fəlakətini, bir obraz kimi təcəssümünü yaradır.

**Nə çox divarı var**
**bu evin belə**
**bu evdə gecələr**
**zindan qoxuyur**
**divarlar səssizcə**
**verib əl-ələ**
**bir tənha gözələ**
**meydan oxuyur.**

Şeirin bundan sonrakı bəndləri bətnində üçaylıq uşaq yaşayan, yoldaşı müharibədə həlak olan bir gəlinin tənhalığını və faciəsini canlandırır. Sanki bütün dünyanın sonsuz gecələri günəşdən yayınıb burda, bu evdə, bu zindan divarlar arasında gizlənib. Sükutun özü də hıçqırıq səsinə diksinib burda gecələyir. Tül pərdələr, cansız əşyalar biçarə gəlinə "kişilik" edir, gəlinin xəyalında yaşatdığı ağ atlı oğlan isə kirkirə dünyanın çölündədir. Müharibənin bir evdə, zindan divarlar arasında bir ürəyə, bir gəlinə, üçaylıq bir körpəyə çəkdirdiyi dağ çox təsirli, məhz şeirin yarada biləcəyi tragik boyalarla təsvir edilib. Həyat faktına xüsusi poetik yanaşma Vüqar Əlisoyun "Gözəl Bakı" və "Daş üzərində yazı" silsiləsində də nəzərə çarpır. Birinci silsilədə təkcə insanlar deyil, predmetlər və əşyalar da "hərəkətə" gəlir, Bakının səhərəcən uzanan gecəsinin prozaik mənzərəsi gözlərimiz qarşısında canlanır. "Bir gecəlik sevgi"nin içində sarıköynək qadınların qaş-qabağı gecələrin artığını küçələrdən süpürür, darıxan dayanacaqlar, turşuya qoyulmuş sifətlər, qalstuklu bir şorgözün nəfəsi, donuq gözlər, üzü tüklü sürücü və digər görüntülər Bakının səhərə açılan mənzərəsini tamamlayır və əlbəttə, bütün bunlar fərdi poetik duyumun əlamətləri kimi diqqəti cəlb edir. Misralar arasında məntiqi pozuntu nəzərə çarpmır, əksinə, misralar pillə-pillə bir-birini tamamlayır, müəyyən bir görüntünün get-gedə böyüyərək, genişlənərək obraza çevrilməsinə şərait yaradır. Deyək ki, bir gözəlin bənizinə hopan tüstü qalstuklu şorgözün qafasında assosiasiya yaradır (tüstüdə oyandırıcılıq, qıcıqlandırıcılıq xassəsi var), sonra bu tüstü doğum evlərinin kürəyinə sancılır, üzü tüklü bir sürücünün yarıyuxulu sifətinə dolur). Ümumiyyətlə, assosiativliyə meyl, əşyalar və predmetlər, ilk baxışda bir-birilə ilişkisi olmayan nəsnələrin paralelliyi Vüqar Əlisoyun bədii təfəkkürünün bu səmtə meyl etdiyindən xəbər verir. "Qapı arxasında" məncə, Vüqar Əlisoyun bu baxımdan ən uğurlu şeiridir. "Çəhrayı gecə" ilə "yarı yumulu, yarı yuxulu bir səhər"in qarşılaşdırılması ilk baxışda təzaddır, amma onları bir araya gətirən "yan-yana düzülmüş günahların hönkürtüsü, kölgələnmiş gözlərin döyüntüsü"dür, yuxusu ərşə çəkilən "bir qadının yeddi mərtəbəli həqiqəti"ndən doğan intizarıdır.



Vüqar Əlisoy gerçək həqiqətlərə də biganə qalmır və bu həqiqətləri pafosla, ritorik tərzdə söyləmir, bu, onun fərdi üslubuna xas deyil. Deyək ki, "Azadlığa gedən yolda" tıxacların yaranmasını adi, primitiv mənasında dərk eləmirik, bu TIXAC insan azadlığının qarşısını kəsən manelərdir. "Quduz gerçək", "Ölmək keçir ürəyimdən", "Mən düz olmazdım" şeirlərində isə heç bir simvola, rəmzə ehtiyac duyulmur. Gizlətməyək ki, pessimizm bu üç şeirin canına hopub. Amma bu pessimizmi doğuran səbəblər nədir? Əgər insan bu dünyada gerçək həyatını, arzu və əməllərini reallaşdıra bilmirsə və buna qadir deyilsə:

**gəlmə bu dünyaya**
**adam**
**gəlmə**
**gəlsən**
**sən də bu dünyadan**
**azadlıq umacaq**
**xəyallara dalacaqsan**
**uçacaqsan**
**mələklərin ağuşunda**
**uçurduğu quşa baxan**
**bir çocuğun baxışında**
**uçacaqsan**
**arzuların dalınca**
**arzulardan yıxılınca**
**karıxıb duruxub**
**gerçəyə yoluxub**
**oyanacaqsan**

Bəs sonra? O insan gəldiyi yerə də uçmalıdı. Geriyə, öz əslinə qayıtmalımı? Yox, burada sufi düşüncəsi duyulmur. Çünki bu insan həyatın ağrı-acısından, zülm və zalımlığından təngə gəlir. Təbii ki, bu şeirdə təsvir olunan insan o tipli insanları təmsil edir. İşıqsız, aciz, passiv insanları. Amma dünya yalnız bu insanlardan ibarət deyil.

Vüqar Əlisoyun şeirləri poetik enerji etibarilə müxtəlifliyi ilə seçilir. Elə şeirləri var ki, onları oxuyanda o şeirlərin poetik ab-havası, sənə aşıladığı xoş duyğular üreyincədir. Amma elə şeirlər də var ki, bunlar, rəssam diliylə desək, yalnız tamamlanmayan eskizlərdir.

Mən Vüqarın həm hecada, həm də sərbəstdə yazdığı şeirləri müqayisə etmək istəməzdim, amma subyektiv fikrim belədir ki, Vüqar Əlisoy hecada daha mükəmməl görünür. Bu şeirdə olduğu kimi:

**Gileylənmə qocalıqdan ay ata,**
**Öz vaxtında düşən qışdır qocalıq.**
**Uşaqlıqdan gələn yoldur, indi də**
**Uşaqlığa qayıdışdır qocalıq.**

**Təməl qoyan belə qoyub təməli,**
**İnsan oğlu hər yaşını sevməli**
**Ömrün əgər xalıdırsa, deməli**
**Son ilmədir, son naxışdır qocalıq.**

**Nə çox yatma, nə gününü say ata,**
**Aç gözünü, şükür elə həyata,**
**O dünyanın kandarından, ay ata,**
**Bu dünyaya son baxışdı qocalıq.**

Müasir qoşmaya xas olan bütün komponentlər-forma mükəmməlliyi, məzmun yeniliyi, bəndlər və misralar arasında davamlı kommunikasiya açıq-aydın nəzərə çarpır.

**Hələlik bura qədər. Vüqar Əlisoya həmişə belə mükəmməl şeir yazmağı arzulamaqdan başqa bir istəyim yox...**